**Mübariz Malik oğlu Məmmədli**
**i.f.d.,dos.**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**E-mail:malito:mubariz.mammadli@unec.edu.az**
**UOT:338.33;334.012; JEL:L20;L29;M20.**

# Azərbaycanda biznes subyektlərinin fəaliyyət sahələrinin genişləndirilməsi

***Xülasə***

*Tədqiqatın məqsədi ölkədə biznes subyektlərinin fəaliyyət sahələrinin inkişaf problemlərini araşdırmaqdır. Məqalədə biznes subyektlərinin fəaliyyət sahələrinin genişləndirilməsi məsələlərinə baxılmışdır. Tədqiqatın aparılmasında müqayisəli yanaşma, statistik təhlil kimi metodlardan istifadə edilmişdir. Tədqiqatın nəticəsi kimi müəyyən edilmişdir ki, biznes fəaliyyəti iqtisadiyyatda yeni ideyaların yaranmasına, yayılmasına və həyata keçirilməsinə imkanlar yaradır. Eyni zamanda yeni sənaye sahələri və bununla da yeni məşğulluq sahələri yaradır. Müasir texnologiyalardan istifadə etməklə məhsuldarlığın artırılması təmin olunur və müvafiq sektorlarda iqtisadi artım sürətlənir. Qeyd edilən tövhələri nəzərə alaraq, Azərbaycanda biznes sahəsinin inkişafı istiqamətində ciddi addımlar atılmışdır. Məqalədə son dövrlərdə lisenziyalaşdırma sahəsində qəbul edilmiş qanunvericilik bazasına toxunulmuş və mikro, kiçik və orta biznes subyektlərinin dəyişən dinamikası sahələr üzrə qiymətləndirilmişdir.*

***Açar sözlər:*** *sahibkarlıq subyektləri, hüquqi baza, özəl sektor, inkişaf, lisenziya*

## Giriş

Biznes fəaliyyətinin genişlənməsi ölkədə insanların tələbatının ödənilməsinə, iqtisadi aktivliyin artmasına, məşğulluğun yüksəlməsinə, ölkə iqtisadiyyatının güclənməsinə, rifahın vətəndaşlar arasında yayılmasına və ümumilikdə iqtisadi inkişafın təmin olunmasına şərait yaradır. Ona görə də ölkədə biznes fəaliyyətinin təznimlənməsi və dəstəklənməsi böyük əhəmiyyət kəsb edir. Biznes fəaliyyətinin əhatə dairəsini başa düşmək və onu qiymətləndirə bilmək üçün əvvəlcə “inkişaf” sözünün ehtiva etdiyi mənalara baxaq. Belə ki, inkişaf ifadəsi özündə üç əsas istiqaməti birləşdirir. Bunlara aiddir [7]: inkişaf - həyat üçün zəruri olan qida, sığınacaq, sağlamlıq və təhlükəsizlik kimi əsas ehtiyaclara əlçatanlığın artması; inkişaf - həyat səviyyəsinin yüksəldilməsi, eləcə də təhsil və iş imkanlarının artırılması; inkişaf - fərdlərə və cəmiyyətə təklif olunan iqtisadi və sosial sahədəki azadlıqların artırılması. İnkişaf anlayışı özündə ehtiva etdiyi bu üç istiqamət dövlətin apardığı siyasətlə, xüsusilə dövlətin biznes sahəsini tənzimləmə istiqaməti ilə birbaşa və dolayı bağlıdır. Məsələn, azad bazarın inkişafı və sağlam rəqabətin təmin edilməsi bazarda qida çeşidlərinin və qiymətlərinin əlçatanlığına, həmçinin tikinti və səhiyyə sahəsində göstərilən xidmətlərin keyfiyyətinin artırılmasına imkan yaradadır. Başqa sözlə, dövlətin biznes sahəsində apardığı tənzimləmələr insanların təhsil gücünün və iş imkanlarının artırılmasına, ümumilikdə həyat səviyyəsinin yüksəlməsinə və bununla da ölkənin inkişafınınn sürətlənməsinə təkan verir. İnkişafı hədəfləyən dövlət fərdlərə və cəmiyyətə təklif olunan iqtisadi və sosial sahədəki azadlıqları artırmalı olduğu üçün biznes sahəsində tənzimləmələri ən optimal səviyyədə aparmalı və şəxslərin istehsal və istehlak azadlıqları təmin edilməlidir. Ümumiyyətlə, özəl sektora dövlət tərəfindən göstərilən dəstək birbaşa və dolayı olmaqla çeşidli yollarla təklif olunur. Müxtəlif formalarda aparılan bu dəstəklər çoxyönlü təsirlər yaradır. Ancaq, dövlət tərəfindən verilən dəstəyin və ümumilikdə bu fəaliyyətə təsir göstərən bütün addımların bir hüquqi əsası vardır. Bu baxımdan Azərbaycanda biznesin dövlət tənzimlənməsində mövcud hüquqi bazanın öyrənilməsi vacibdir.

**Biznes fəaliyyətinin tənzimlənməsi: qanunvericilik bazası**

Azərbaycan Respublikasında biznes fəaliyyətinin hüquqi bazası həm dünya təcrübəsi, həm də milli xüsusiyyətlər və müasir tələblər nəzərə alınaraq formalaşmalı və təkmilləşdirilməlidir. Azərbaycan Respublikasının ən mühim hüquqi sənədi olan Konstitusiyada bazar münasibətlərinə əsaslanan iqtisadi inkişafın formalaşması, sahibkarlıq fəaliyyətinə təminat verilməsi və bu fəaliyyətin qorunması ilə bağlı maddələr əks olunmuşdur [1]. Bundan başqa, azad bazarın əsas göstəricilərindən biri olan rəqabətin təmin edilməsi və bu istiqamətdə bütün mexanizmlərin qurulması və bazarda rəqabətin qorunması da müvafiq maddələrdə qeyd edilmişdir (Maddə 15 və Maddə 59). Konstitusiyanı əsas hüquqi sənəd qəbul edərək, biznesin inkişafı istiqamətində qəbul edilmiş qanunlar və digər hüquqi sənədlər ölkədə biznes fəaliyyətinin hüquqi bazasını təşkil edir. Azərbaycanda biznes sahəsində qanunvericilik bazasını formalaşdıran mühim qanunvericilik sənədlərinə müvafiq məcəllə (Torpaq Məcəlləsi, Mülki Məcəllə, Vergi Məcəlləsi, Gömrük Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi və s.), qanun ("Sahibkarlıq fəaliyyəti haqqında", "Torpaq islahatı haqqında", "Mühasibat uçotu haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "İnvestisiya fəaliyyəti haqqında" və s. Azərbaycan Respublikasının qanunları), fərman ("Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında", "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında", Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında", "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında", "İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri"nin təsdiq edilməsi haqqında və s. Azərbaycan Respublikası Prezidentinin fərmanları), dövlət proqramları (Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı, Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı və s.) və strateji yol xəritələri (Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi və s.) göstərilə bilər. Qeyd edilən hüquqi sənədlərin hər biri qəbul edildiyi dövrdən etibarən biznes sisteminin tənzimlənməsində mühim rol oynamışdır. Nümunə olaraq yaxın dövrdə ölkədə biznes sahəsinin inkişafına ciddi təsir etmiş qanunvericilik sənədlərindən bir neçəsinə nəzər salaq. Biznes mühitinin yaxşılaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyan hüquqi sənədlərdən biri lisenziyaların və icazələrin verilməsi ilə bağlı olmuşdur. Belə ki, 19.10.2015-ci il tarixində "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır [6]. Fərmanda qeyd edilir ki, ölkədə sahibkarlıq fəaliyyətinin aparılması üçün lisenziya tələb olunan fəaliyyətlərin növləri çoxdur. Bu kimi sənədləşmə işləri və xüsusi razılıq verilməsi ilə bağlı mövcud prosedurlar sahibkarlıq fəaliyyətinin inkişafında çətinliklər yaradır. Bu çətinliklər təbii olaraq korrupsiya hallarına da şərait yaradır. Bu məqsədlə, Fərmana əsasən, xüsusi razılıq tələb edilən sahibkarlıq fəaliyyətinin sayı minimuma endirilməli və dövlət təhlükəsizliyini təmin etmək üçün zəruri lisenziyalı fəaliyyətlərin sayı müəyyən edilməlidir. Çünki lisenziya tələb edən fəaliyyət növlərinin sayının azaldılması

sahibkarlığın inkişafına müsbət təsir edəcəkdir. Beləliklə, bu sahədə aparılmış dəyişikliklər nəticəsində lisenziya tələb edən fəaliyyərlərin növləri kəskin surətdə azaldılmışdır. Eyni zamanda, sahibkarlıq fəaliyyəti ilə bağlı verilən yeni lisenziyalar müddətsiz olaraq verildiyi üçün, əvvəlcədən verilmiş və qüvvədə olan müddətli lisenziyalar da dəyişilərək müddətsiz olmuşdur [5]. Bu istiqamətdə tətbiq edilən dövlət rüsumunun məbləği azaldılmış, lisenziya verilməsi üçün tələb olunan prosedurlar isə sadələşdirilmişdir.

**Cədvəl 1.**

**Bəzi fəaliyyət növləri üzrə lisenziyalara ödənən dövlət rüsumunun məbləği (manat)**

| Fəaliyyət növünün adı | Dövlət rüsumunun məbləği (manat) |
|---|---|
| özəl tibb fəaliyyəti | 2250 |
| əczaçılıq fəaliyyəti: | |
| dərman vasitələrinin istehsalı | 2250 |
| dərman vasitələrinin topdansatışı | 20000 |
| dərman vasitələrinin pərakəndə satışı | 1000 |
| təhsil fəaliyyəti: | |
| dövlət məktəbəqədər təhsil müəssisələri istisna olmaqla, məktəbəqədər təhsil müəssisələri | 1250 |
| dövlət ümumi təhsil müəssisələri istisna olmaqla, ümumi təhsil müəssisələri (liseylər və gimnaziyalar daxil olmaqla) | 10000 |
| dövlət peşə təhsili müəssisələri istisna olmaqla, peşə təhsili müəssisələri | 2000 |
| dövlət orta ixtisas təhsili müəssisələri istisna olmaqla, orta ixtisas təhsili müəssisələri | 2000 |
| dövlət ali təhsil müəssisələri istisna olmaqla, ali təhsil müəssisələri | 13750 |
| dövlət əlavə təhsil müəssisələri istisna olmaqla, əlavə təhsil müəssisələri | 1500 |
| dini orta ixtisas təhsili müəssisələri | 2000 |
| ali dini təhsil müəssisələri | 13750 |
| rabitə xidmətləri: | |
| telefon (məftilli) | 2500 |
| radiotrank və simsiz telefon | 2500 |
| sellülar (mobil) rabitə xidmətləri (texnoloji standartın adı göstərilməklə) | 1000000 |
| İP-telefoniya (internet telefoniya) | 50000 |
| ölkədaxili telekommunikasiya kanallarının təşkili | 2500 |
| beynəlxalq telekommunikasiya kanallarının təşkili | 5500 |
| məlumatların ötürülməsi (data) | 3000 |
| sürətli poçt xidməti | 1250 |
| Müxtəlif növ möhürlərin və ştampların hazırlanması | 1100 |

Mənbə: https://asan.gov.az/az/service/asan-xidmetler/lisenziyalarin-verilmesi

Fəaliyyət növü üzrə lisenziya almaq istəyən şəxs lisenziya verən dövlət orqanına ərizə təqdim edir və ərizəyə əlavə edilmiş sənədlərə baxılmanın nəticəsinə uyğun olaraq ərizənin qeydiyyata alındığı tarixdən etibarən 10 iş günündən gec olmayaraq nəticə ərizəçiyə bildirilir. Bildiyimiz kimi iqtisadi fəaliyyətlərlə bağlı elektronlaşmanın gücləndirilməsi şəffaflığın təmin edilməsinə müsbət təsir edir. Bu məqsədlə, 14 mart 2018-ci il tarixində "Lisenziyalar və icazələr" portalı haqqında Əsasnamə" qəbul edilmişdir [4]. Nəticədə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən subyektlərə fəaliyyətləri üzrə tələb olunan lisenziyalar və icazələrin artıq elektron qaydada verilməsi təmin edilmişdir. Bu əməliyyatlar "Lisenziyalar və icazələr" portalı vasitəsilə həyata keçirilmişdir. Ölkədə ticarət sahəsinin genişlənməsi üçün də müxtəlif hüquqi sənədlər qəbul edilmişdir. 2016-cı il 5 oktyabr tarixində imzalanmış fərmanla "Made in Azerbaijan" adı ilə yerli qeyri-neft məhsullarının xarici bazarlarda təbliğinin aparılmasına əsas vermişdir [2]. İmzalanmış Fərman "Made in Azerbaijan" brendinin xarici ölkələrdə

tanıdılması, habelə ixracının stimullaşdırılması üçün əsas 10 mexanizmi, yəni dəstək tədbirini özündə cəmləmişdir. "Made in Azerbaijan" brendinin xarici bazarda tanınması, bu məhsulların satışının təşkil edilməsi, fəaliyyətlərin əlaqələndirilməsi istiqamətində müxtlif ölkələrdə (Çin, Birləşmiş Ərəb Əmirlikləri, Polşa, Belarus, Latviya, Ukrayna, Özbəkistan, Qazağıstan) ticarət evlərinin açılışı olmuşdur. Azərbaycan şirkətləri tərəfindən istehsal edilmiş müxtəlif məhsulların - çay, mürəbbə, qənnadı məmulatları, mineral sular, meyvə şirələri, şərablar, konserv məhsulları, kosmetik məhsullar və s. – satışı ticarət evlərində həyata keçirilir. Ticarət sahəsinin genişlənməsi xarici bazarlarda olduğu kimi, daxili bazarlarda da aparılmışdır. Beləliklə, ölkədə aparılan siyasətlər həm mikro sahibkarlığın, həm də KOB-ların fəaliyyətinə və onların sayının artmasına təsir göstərmişdir.

**Cədvəl 2.**

**Mülkiyyət növləri üzrə fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı**

| | Cəmi | 2019 | | | Cəmi | 2020 | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Mikro | Kiçik | Orta | | Mikro | Kiçik | Orta |
| **Mülkiyyət növləri üzrə cəmi** | **271304** | **262622** | **5956** | **2726** | **316370** | **307717** | **5943** | **2710** |
| dövlət mülkiyyəti | 1784 | 744 | 440 | 600 | 1811 | 782 | 414 | 615 |
| qeyri-dövlət mülkiyyəti | 269520 | 261878 | 5516 | 2126 | 314559 | 306935 | 5529 | 2095 |
| xüsusi mülkiyyət | 266434 | 259694 | 4948 | 1792 | 311296 | 304548 | 4960 | 1788 |
| xarici mülkiyyət | 2376 | 1739 | 402 | 235 | 2519 | 1890 | 427 | 202 |
| birgə mülkiyyət | 710 | 445 | 166 | 99 | 744 | 497 | 142 | 105 |

Mənbə: https://stat.gov.az/source/entrepreneurship

Cədvəl 2-də əks olunduğu kimi, 2019-cu ildə ölkədə cəmi 271304 mikro, kiçik və orta sahibkarlıq subyekti fəaliyyət göstərmişdir. 2020-ci ildə isə onların sayı 316370-ə yüksəlmişdir. Mülkiyyət növü üzrə müqayisə apardıqda, həm dövlət mülkiyyətində, həm də qeyri-dövlət mülkiyyətində olan müəssisələrin cəmi sayında artım müşahidə edilmişdir. Dövlət mülkiyyətində olan subyektlərin sayı 1,5% artdığı halda, qeyri-dövlət mülkiyyətində olan subyektlərin sayı təxminən 13,9% artmışdır. Digər tərəfdən miqyasına görə müqayisə apardıqda, ümumi artım yalnız mikro subyektlərin sayında baş vermişdir. Kiçik və orta biznes subyektlərin ümumi sayında cuzi bir azalma baş vermişdir. Bununla yanaşı, qeyri-dövlət mülkiyyətində olan subyektlərin sayı mikro və kiçik biznes üzrə artdığı halda, orta biznes üzrə azalmışdır. Mülkiyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayına nəzər saldıqdan sonra, onların iqtisadi fəaliyyət sahəsi üzrə mövcud dinamikasına baxaq (cədvəl 3).

**Cədvəl 3.**

**İqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı**

| İqtisadi fəaliyyət növləri | Cəmi | 2019 | | | Cəmi | 2020 | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Mikro | Kiçik | Orta | | Mikro | Kiçik | Orta |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | **3339** | **2941** | **267** | **131** | **3264** | **2849** | **277** | **138** |
| **dövlət mülkiyyəti** | 167 | 129 | 33 | 5 | 162 | 136 | 21 | 5 |
| **qeyri-dövlət mülkiyyəti** | 3172 | 2812 | 234 | 126 | 3102 | 2713 | 256 | 133 |
| Sənaye cəmi | **10983** | **9615** | **746** | **622** | **14007** | **12583** | **780** | **644** |
| **dövlət mülkiyyəti** | 481 | 101 | 106 | 274 | 476 | 100 | 106 | 270 |
| **qeyri-dövlət mülkiyyəti** | 10502 | 9514 | 640 | 348 | 13531 | 12483 | 674 | 374 |
| Mədənçıxarma sənayesi | **653** | **538** | **79** | **36** | **713** | **597** | **76** | **40** |
| **dövlət mülkiyyəti** | 10 | 3 | 4 | 3 | 11 | 2 | 5 | 4 |
| **qeyri-dövlət mülkiyyəti** | 643 | 535 | 75 | 33 | 702 | 595 | 71 | 36 |
| Emal sənayesi | **9585** | **8686** | **565** | **334** | **12447** | **11490** | **598** | **359** |
| **dövlət mülkiyyəti** | 103 | 43 | 28 | 32 | 93 | 37 | 25 | 31 |
| **qeyri-dövlət mülkiyyəti** | 9482 | 8643 | 537 | 302 | 12354 | 11453 | 573 | 328 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | **249** | **83** | **32** | **134** | **261** | **92** | **34** | **135** |
| **dövlət mülkiyyəti** | 196 | 40 | 26 | 130 | 201 | 43 | 26 | 132 |
| **qeyri-dövlət mülkiyyəti** | 53 | 43 | 6 | 4 | 60 | 49 | 8 | 3 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | **496** | **308** | **70** | **118** | **586** | **404** | **72** | **110** |
| **dövlət mülkiyyəti** | 172 | 15 | 48 | 109 | 171 | 18 | 50 | 103 |
| **qeyri-dövlət mülkiyyəti** | 324 | 293 | 22 | 9 | 415 | 386 | 22 | 7 |
| Tikinti | **6249** | **5149** | **680** | **420** | **11670** | **10447** | **770** | **453** |
| **dövlət mülkiyyəti** | 182 | 40 | 41 | 101 | 182 | 41 | 32 | 109 |
| **qeyri-dövlət mülkiyyəti** | 6067 | 5109 | 639 | 319 | 11488 | 10406 | 738 | 344 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | **84844** | **82207** | **1922** | **715** | **103707** | **101141** | **1925** | **641** |
| **dövlət mülkiyyəti** | 138 | 116 | 17 | 5 | 135 | 117 | 13 | 5 |
| **qeyri-dövlət mülkiyyəti** | 84706 | 82091 | 1905 | 710 | 103572 | 101024 | 1912 | 636 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Nəqliyyat və anbar təsərrüfatı | **42965** | **42511** | **288** | **166** | **65987** | **65527** | **285** | **175** |
| **dövlət mülkiyyəti** | 187 | 58 | 53 | 76 | 189 | 60 | 49 | 80 |
| **qeyri-dövlət mülkiyyəti** | 42778 | 42453 | 235 | 90 | 65798 | 65467 | 236 | 95 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | **19903** | **19601** | **216** | **86** | **20513** | **20286** | **149** | **78** |
| **dövlət mülkiyyəti** | 17 | 8 | 9 | - | 17 | 12 | 5 | - |
| **qeyri-dövlət mülkiyyəti** | 19886 | 19593 | 207 | 86 | 20496 | 20274 | 144 | 78 |
| İnformasiya və rabitə | **4115** | **3767** | **228** | **120** | **6939** | **6605** | **221** | **113** |
| **dövlət mülkiyyəti** | 127 | 33 | 31 | 63 | 130 | 37 | 29 | 64 |
| **qeyri-dövlət mülkiyyəti** | 3988 | 3734 | 197 | 57 | 6809 | 6568 | 192 | 49 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | **6044** | **5799** | **201** | **44** | **7282** | **7021** | **216** | **45** |
| **dövlət mülkiyyəti** | 75 | 43 | 26 | 6 | 93 | 45 | 41 | 7 |
| **qeyri-dövlət mülkiyyəti** | 5969 | 5756 | 175 | 38 | 7189 | 6976 | 175 | 38 |
| Təhsil | **3888** | **3696** | **148** | **44** | **6358** | **6223** | **91** | **44** |
| **dövlət mülkiyyəti** | 48 | 37 | 6 | 5 | 52 | 39 | 7 | 6 |
| **qeyri-dövlət mülkiyyəti** | 3840 | 3659 | 142 | 39 | 6306 | 6184 | 84 | 38 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | **1808** | **1486** | **242** | **80** | **3793** | **3461** | **241** | **91** |
| **dövlət mülkiyyəti** | 54 | 17 | 26 | 11 | 52 | 21 | 14 | 17 |
| **qeyri-dövlət mülkiyyəti** | 1754 | 1469 | 216 | 69 | 3741 | 3440 | 227 | 74 |
| Digər sahələr<br>Other branches | **87166** | **85850** | **1018** | **298** | **72850** | **71574** | **988** | **288** |
| **dövlət mülkiyyəti** | 308 | 162 | 92 | 54 | 323 | 174 | 97 | 52 |
| **qeyri-dövlət mülkiyyəti** | 86858 | 85688 | 926 | 244 | 72527 | 71400 | 891 | 236 |

Mənbə: https://stat.gov.az/source/entrepreneurship

Cədvəl 3-dən görüldüyü kimi, 2019-cu ili 2020-ci illə müqayisə etdikdə, COVİD-19 pandemiyasının təsirlərinə baxmayaraq, yalnız bir iqtisadi fəaliyyət sahəsi üzrə biznes subyektlərinin sayında azalma baş vermişdir. Bu sahə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq olmuşdur. Digər sahələrdə isə biznes subyektlərinin sayı xüsusilə qeyri-dövlət bölməsi olmaqla armışdır. Ən büyük artım isə nəqliyyat və anbar təsərrüfatı (23022 ədəd), ticarət, nəqliyyat vasitələrinin təmiri (18863 ədəd), tikinti (5421 ədəd), sənaye (3024 ədəd), informasiya və rabitə (2824 ədəd), emal sənayesi (2862 ədəd), təhsil (2470 ədəd), əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi (1985 ədəd), daşınmaz əmlakla əlaqədar əməliyyatlar (1238 ədəd), turistlərin yerləşdirilməsi və ictimai iaşə (610 ədəd) sahəsində müşahidə edilmişdir. Maraqlı olan odur ki, 2020-ci ildə müşahidə edilən artım ya tamamən,

ya da böyük hissəsi olmaqla mikro biznes sahəsində görülmüşdür. Kiçik və orta biznes sahələrində isə fərqli sahələrdə azalma baş vermişdir.

**Nəticə**

Azərbaycanda iqtisadi artımın və rifahın yüksəlməsində rəqabət qabiliyyətli özəl sahibkarlığın rolu böyükdür. Ölkədə genişlənən biznes subyektləri istehsal amillərini - əməyi, kapitalı, torpağı və texnologiyanı birlikdə istifadə edərək müvafiq sahələr üzrə riski öz üzərinə götürərək ölkə iqtisadiyyatında iqtisadi aktivliyin qrunmasına xidmət etmişdir. Biznes subyektlərinin götürdükləri riskləri qiymətləndirmək, dövrün tələblərinə uyğun yeniliklər etmək üçün dövlət tərəfindən onlara yeni imkanlar yaradılmalıdır. Onların iqtisadi resursları aşağı məhsuldar sahələrdən daha yüksək məhsuldar sahələrə köçürməsi üçün bazarda zəruri atmosfer yaradılmalı və dövlət tərəfindən qorunmalıdır. Bundan başqa, innovativ yanaşmaların tətbiqi üçün təşviqedici mexanizmlər daha da genişlənməli, boş qalan istehsal amillərindən istifadə təşviq edilməlidir. Biznes fəaliyyətində yeni ideyaların formalaşması, yayılması və reallaşması imkanı genişləndirilməli və fürsətlər yaradılmalıdır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995-ci il, https://www.e-qanun.az/framework/897
2. “Xarici ölkələrə ixrac missiyalarının və Azərbaycan ərazisinə alıcı missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, “Made in Azerbaijan” brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı beynəlxalq sertifikat almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı, 5 oktyabr 2016-cı il, https://e-qanun.az/framework/33825
3. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu, 15 mart 2016-cı il, https://e-qanun.az/framework/32626.
4. “Lisenziyalar və icazələr” portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinin Fərmanı, 21 yanvar 2017-ci il, https://e-qanun.az/framework/34660
5. “Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 21 dekabr 2015-ci il, https://e-qanun.az/framework/31676
6. “Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 19.10.2015-ci il, https://e-qanun.az/framework/31049.
7. M.Todaro, S.C.Smith, (2011). Economic Development,11th Edition, Pearson Education and Addison-Wesley.
8. https://asan.gov.az/az/service/asan-xidmetler/lisenziyalarin-verilmesi
9. https://stat.gov.az/source/entrepreneurship/#

***Мубариз Малик оглы Мамедли***

***Расширение сфер деятельности субъектов бизнеса в Азербайджане***

***Резюме***

*Целью исследования является изучение проблем развития сфер деятельности субъектов предпринимательства в стране. В статье рассмотрены вопросы расширения сфер деятельности субъектов предпринимательства. При проведении исследования использовались такие методы, как сравнительный подход, статистический анализ. Как результат исследования установлено, что хозяйственная деятельность создает возможности для появления, распространения и реализации новых идей в экономике. В то же время он создает новые отрасли и, следовательно, новые области занятости. С помощью современных технологий обеспечивается повышение производительности и ускоряется экономический рост в соответствующих отраслях. Принимая во внимание упомянутые доводы, были предприняты серьезные шаги в направлении развития сферы бизнеса в Азербайджане. В статье затронута законодательная база, принятая в последнее время в области лицензирования, и дана оценка меняющейся динамики субъектов микро, малого и среднего бизнеса по отраслям.*

***Ключевые слова:*** *хозяйствующие субъекты, правовая база, частный сектор, развитие, лицензирование*

***Mubariz Malik Mammadli***

***Expansion of areas of activity of business entities in Azerbaijan***

***Summary***

*The purpose of the study is to examine the problems of the development of areas of activity of business entities in the country. The article considers the issues of expanding the areas of activity of business entities. In conducting the study, methods such as a comparative approach, statistical analysis were used. As a result of the study, it was established that business activity creates opportunities for the emergence, dissemination and implementation of new ideas in the economy. At the same time, it creates new industries and thus new areas of employment. Through the use of modern technologies, productivity increases are ensured and economic growth in the relevant sectors is accelerated. Taking into account the above-mentioned contributions, serious steps have been taken to develop the business sector in Azerbaijan. The article touched upon the legislative framework adopted in the field of licensing in recent years and assessed the changing dynamics of Micro, Small and medium business entities in the areas.*

***Keywords:*** *business entities, legal framework, private sector, development, license*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 28.10.2022.***
***Çapa qəbul olunub: 04.11.2022.***